**Asim Əliyev**

# Bəhruz Ömrü

Zamanın ağrıları dağ idi ürəyində,
Gözü nələr görürdü, qəlbi nələr çəkirdi...
Vətənin ağrısını, dərdini, sevincini,
Bir boylu çinar kimi ürəyinə "əkirdi".

Nəfəsiydi bu torpaq- rənglərdən, boyalardan.
Ona ilmə vururdu – xalılar toxuyurdu.
Nəğməli bülbül kimi səhərdən axşamadək
Hər gülə, hər çiçəyə nəğmələr oxuyurdu.

Yurdundan ,yuvasından qaçqın , köçkün düşənlər
Onun tablolarında canlı qəhrəman idi.
Bu qanlı cinayətə dağ da, daş da dözməzdi,
Bu dərdə dözən ancaq yenə də insan idi.

Tarix yaşadırdı o, ölməz fırçası ilə,
Onun əsərlərində zamanın özü vardır.
Necə vardı çəkmişdi bir vaxt Nuhun qəbrini,
Ucaltdıq Nuh türbəsin – Bəhruz da bəxtiyardır.

Ömrünün illərini sovurmadı boşuna,
Qısa ömrünü belə yaşadı insan kimi.
Zamanın sınağından, çətin imtahanından
Çıxıb Bəhruz ,yaşayır əsil qəhrəman kimi.